*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Azərbaycan ədəbiyyatşünaslığı, 2024, № 2*
*Səhifə: 109-112*
*https://doi.org/10.59849/2663-4406.2024.2.109*

*ISSN: 2663-4406*
*E-ISSN: 2709-2699*

## FOLKLOR

# Naxçıvan folklor toponimləri Səfərəli Babayevin tədqiqatlarında

**Nigar İsayeva**
Filologiya üzrə fəlsəfə doktoru
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
E-mail: nigar.isaeva65@mail.ru

**Annotasiya.** Aparılmış araşdırmalar, bir sıra tarixi və coğrafi dəlillər sübut edir ki, "Kitab-Dədə Qorqud" qəhrəmanlarının əsas yaşayış məskənlərindən biri də Naxçıvan diyarı olmuşdur. "Kitab-Dədə Qorqud"la əlaqədar olan toponimlər Azərbaycanda, onun ayrılmaz hissəsi olan Naxçıvan diyarında – Qərbi Azərbaycanda və onlarla qonşu olan ərazilərdə – Türkiyənin şimal-şərqində, Gürcüstanın cənub-şərqində və Cənubi Azərbaycanın şimal hissəsində yerləşir və onlarla əlaqədar olan hadisələr, boylar bu ərazilərdə cərəyan edir. Məqalədə Səfərəli Babayevin "Kitabi-Dədə Qorqud" dastanında verilən Naxçıvan toponimləri haqqında araşdırmaları tədqiqata cəlb olunmuşdur.
**Açar sözlər:** "Kitabi-Dədə Qorqud", Naxçıvan, toponim, Ağ qaya, Dərəşam, Əlincə

**Məqalə tarixçəsi:** göndərilib – 13.09.2024; qəbul edilib – 27.09.2024

# Nakhchivan folklore toponyms in the researches of Safarali Babayev

**Nigar Isayeva**
Doctor of Philosophy in Philology
Institute of Literature named after Nizami Ganjavi of ANAS
E-mail: nigar.isaeva65@mail.ru

**Abstract.** Our research, a number of historical and geographical evidences prove that one of the main settlements of the heroes of Dede Gorgud was the land of Nakhchivan. The toponyms related to Dede Gorgud are located in Azerbaijan, in Nakhchivan, which is an integral part of it - Western Azerbaijan, and in the neighboring areas - in the north-east of Turkey, in the south-east of Georgia and in the northern part of South Azerbaijan, and the events related to them took place in these areas. In the article, Safarali Babayev's researches on Nakhchivan toponyms given in the Book of Dede Gorgud (Kitabi-Dede Gorgud) was included in the research.
**Keywords:** "Kitabi-Dede Gorgud", Nakhchivan, toponym, Ag Gaya, Daresham, Alinja

**Article history:** received – 13. 09.2024; accepted – 27.09.2024

## Giriş / *Introduction*

Azərbaycan toponimləri tariximizin qədimliyini sübuta yetirən faktlardandır. Bu sübutlar Azərbaycan folklorunun hər bir janrında özünəməxsus şəkildə ifadə olunur və bunlar qorunaraq gələcək nəsillərə ötürülməlidir. Akademik M.Kazımoğlu yazır: "Folklorda tarixilikdən danışarkən unutmaq olmaz ki, folklorşünaslıq məktəbləri sırasında bir tarixi məktəb də var və adından göründüyü kimi, bu məktəbin başlıca ideya istiqamətlərindən biri şifahi xalq ədəbiyyatının tarixi hadisələri əks etdirməsi üzərində qurulub. Əlbəttə, şifahi xalq ədəbiyyatının tarixi hadsələri əks etdirməsinə heç kim şübhə ilə yanaşmır. Ancaq "xalq ədəbiyyatı tarixi hadisələri necə, hansı formada əks etdirir və tarixi hadisələri əks etdirməkdə folklor janrları arasında fərqlər varmı? – sualına heç də hamı eyni cür cavabı vermir" [4, s.50].

Bu mənada Naxçıvan bölgəsində də kifayət qədər folklorlla bağlı toponimlər vardır. Bu istiqamətdə tədqiqat aparanlardan biri də Səfərəli Babayevdir. Səfərəli Yaqub oğlu Babayev 1923-cü ildə Naxçıvan MR-nın Babək rayonunun Əznəbürd-Təzəkənd kəndində anadan olmuşdur. AMEA-nın müxbir üzvü S.Babayev coğrafiya elmləri doktoru olmasına baxmayaraq "Kitabi-Dədə Qorqud" dastanlarının coğrafiyasına dair yeni faktlar aşkara çıxarmaqla yanaşı dastanlardakı Naxçıvanla bağlı yer adlarının müəyyən olunması, dəqiqləşdirilməsi və izah edilməsi üçün geniş, dərin və əhatəli tədqiqatlar aparmışdır. Nəticədə o, "Dədə Qorqud"dakı əlliyə yaxın toponimin Naxçıvan ərazisində mövcudluğu qənaətinə gəlmişdir.

## Əsas hissə / *Main Part*

Naxçıvan toponimlərinin nüvəsində böyük bir məna, hansısa hadisənin gizlində qalmış təsviri, xalqımızın yaşam tərzi, adət-ənənəsi, məişəti, tarixin bir parçası yaşayır. Belə tarixi ərazinin keçmişini bu günə çatdıran yer-yurd, el-oba, dağ, daş, çay, göl, bulaq və s. adları xalqımızın tərcümeyi-halı, əzəli və əbədi yaddaşı, əslimizin, kökümüzün coğrafi ünvanı, tariximizi, dilimizi yaşadan tükənməz milli sərvətimiz – söz-abidələrimizdir. Bu abidələr ilk əlifbamız, ilk yaddaş kitabımız, maddi və mənəvi mədəniyyətimizin ilk nümunələridir. Bu nümunələr xalqımızın tarixi ilə bağlı yaranmış, milli mənəviyyatı ilə yoğrulmuş, azərbaycançılıq, türkçülük damğası ilə möhürlənmiş, leksik-semantik və qrammatik sistemi ilə seçilən milli toponimlərdir [2, s.4].

Naxçıvanla bağlı yada düşən folklor toponimləri ilk növbədə "Kitabi-Dədə Qorqud"la bağlı toponimlərdir. Səfərəli Babayevin "Dədə Qorqud" dastanlarındakı Naxçıvan yer adlarını əhatəli şəkildə öyrənməsi, qədim diyarda çoxsaylı Dədə Qorqud toponimlərini müəyyən etməsi bir neçə cəhətdən əhəmiyyətlidir.

"İlk növbədə onu qeyd etmək lazımdır ki, Naxçıvan ərazisində "Dədə Qorqud"un çoxsaylı toponimlərinin qeydə alınması bu regionun qədim Oğuz yurdu, Azərbaycan torpağı olduğunu bir daha təsdiqləyir. Çünki Dədə Qorqud toponimləri Qorqud Atanın torpağa basılmış Türk-Oğuz möhürüdür. Bu mühüm elmi nəticə hələ də Naxçıvana ərazi iddiaları xülyası ilə yaşayan bədnam erməni qəsbkarlarına çox tutarlı cavabdır. Deməli, Dədə Qorqud toponimləri hətta bu gün də Naxçıvan Muxtar Respublikasının ərazi bütövlüyünün qorunub saxlanması, möhkəmləndirilməsi baxımından mühüm əhəmiyyətə malikdir.

- İkincisi, "Kitabi-Dədə Qorqud" dastanlarındakı Naxçıvan yer adları yenidən öyrənilərkən professor Səfərəli Babayev sadəcə məkan prinsipindən deyil, geniş mə'nada zaman-məkan prinsipindən çıxış etdiyi üçün dastandakı bir çox hadisələrin, süjetlərin baş vermə yerini və vaxtını, habelə dastan qəhrəmanlarının səfər marşrutlarını da dəqiqləşdirə bilmişdir.

- Üçüncüsü, mövcud tədqiqatda bütövlükdə "Kitabi-Dədə Qorqud" dastanlarındakı Azərbaycan yer adlarının, toponimlərinin təzədən araşdırılıb dəyərləndirilməsi zərurətini də aşkara çıxarır. Səfərəli Babayevin araşdırmaları geniş mənada olan ümumtürk və Azərbaycan materialının üzvi





tərkib hissəsidir. Ümid edirik ki, bütövlükdə dastan boylarındakı Azərbaycan toponimləri tam halda, sistemli və bütöv şəkildə təzədən elmi tədqiqata cəlb olunacaqdır.

- Dördüncüsü, Səfərəli müəllim dastanlardakı Naxçıvan yer adlarını həm də ədəbiyyat baxımından öyrənmişdir. Yəni adıçəkilən yerlər, toponimlərlə bağlı əfsanə və rəvayətlər də müəllif tərəfindən toplanılmış, tədqiqatda istifadə olunmuşdur. Yaxşı cəhətdir ki, müəllif "Dədə Qorqudda səsləşən yer adları ilə bağlı əfsanə və rəvayətlərdən yazıya aldıqlarından bir çoxunu kitaba daxil etmişdir" [3, s.7].

Səfərəli Babayevin tədqiqatlarında adı birbaşa çəkilən Naxçıvan folklor toponimləri aşağıdakılardır:

"1. Ağ qaya – Babək rayonu, Çalxan dağında, zirvəsi 1758 m.

2. Altuntaxt – Babək rayonu Qaraquc sahəsində yaylaq və qədim yaşayış yer.

3. Qara dərə – Culfa rayonunda çay. Arazın sol qolu, uzunluğu 40 km, Yayca düzündən axır. Daimi axıma malik deyildir, vaxtaşırı güclü sellər keçir.

4. Qaraçuğ – Babək rayonunda kənd.

5. Qaraquc (Qaraquş) - Babək və Şərur rayonları sərhədində dağ və region.

6. Qara dağ – Şahbuz rayonunda 1758 m yüksəkliyində dağ. Külüs kəndindən 1 km cənubda yüksəlir.

7. Dərbənd – Naxçıvan MR-də üç Dərbənd vardır: 1. Şərur rayonu Tənənəm kəndinin şimal şərqində, Qaraqucun qərbində yüksək qayalarla əhatə olunmuş yaylaq sahəsi. 2. Babək rayonundakı Çalxanqala ilə Şahbuz rayonunun Tirkeş kəndi arasında Məkkəz dağında yerləşən Dərbənd. Burada qədim İşıqlar kəndi, "Qala yeri" deyilən sahə vardır. 3. Babək rayonunda Sirab mineral sularının "ayağı" qrupunun 1-2 km-də yerləşən Qapılı Dərbənd. Qədim yaşayış yerinin nişanələri, bürclər qalmaqdadır.

8. Dərəşam – Babək rayonunda dəmiryol stansiyası, qəsəbə və qədim kəndin xarabalığı.

9. Əlincə qalası – Culfa rayonunda Əlincə çayın sağ sahilində Əlincə dağı (1821 m) üzərində qala.

11. Köksü gözəl – Şahbuz rayonunda Salvartı dağında sahə və göl ("Göy su gözəl kimi də işlədilir.)

12. Günortac – Babək rayonu Çalxan dağın qərb hissəsində qaya. Ona "Günorta daşı" deyirlər. Günorta olarkən onun kölgəsi tamam yox olur.

13. Salaxan – Babək rayonunda Qazan yaylağının qərbində Salaxan dərəsinin sol sahilində uzun, yüksək, keçilməz qayalıq (Salaxan dərəsi, Salaxan bulaq, Salaxan yurdu, Salaxan mağaraları da vardır).

14. Şərur – Şərur düzü, Şərur şəhəri

15. Göycə dənizi (Göygöl) – Ordubad rayonunda 3065 m yüksəklikdə göl.

16. Göycə dağı – Göy dağ (2720 m) Culfa rayonunda Bəyəhməd kəndinin cənubunda Gilan çayın yuxarı axınının qərbində yerləşir. Ordubad rayonunda Göycələr sıra dağları, Culfa rayonunda Göynük kəndi vardır" [1, s.83-84].

Adıçəkilən folklor toponimlərindən bəziləri hətta əfsanələrimiz ilə də üst-üstə düşür. Professor Səfərəli Babayevin Naxçıvan diyarı ərazisində topladığı əfsanələrin böyük elmi və tarixi əhəmiyyəti vardır. Hər bir əfsanənin ayrılıqda çox böyük estetik tərbiyəvi əhəmiyyəti olduğundan onlar insanları sədaqətə, birliyə, təəssübkeşliyə, tərbiyəyə, yaradıcı düşünmək bacarığına dəvət edir. Əfsanələr gənclərdən torpağa bağlılıq, eşqə sədaqət, məhəbbətdə dönməzlik, vətəni sevmək kimi keyfiyyətlər tələb edir. Professor Səfərəli Babayevin "Əfsanələr diyarı" kitabı görkəmli alimin hər iki elmin – həm coğrafiya, həm də filoloji elmin vəhdətini qabarıq şəkildə nəzərə çarpdırır. Professor Səfərəli Babayev hazırladığı bu kitabı yalnızca toplama işi olaraq oxuculara çatdırmamışdır. O həm də burada əfsanələri təhlilə cəlb etmişdir. "Üstüpir", "Gəlim-gülüm", "Kəlləgöz dünyası", "Ağ qaya", "Arpaçay gözəli", "Heykəl analar", "Daş qaya", "İlandağ-Haçadağ", "Yeddi bulaq əfsanəsi", "Göygöl əfsanəsi", "Qızlar bulağı" kimi əfsanələri toplamışdır.

Onun tapdığı əfsanələrdən biri Əshabi-Kəhflə bağlı olan əfsanədir. Burada insanın həyata bağlılığı, keçmiş insanların yeni həyata münasibəti, Allaha olan inam dayanır. Bu əfsanələrin kökündə Əhsabi-Kəhf dayanır. Piri ziyarət edən insanlar ona böyük ümid bəsləyir. Burada Səfərəli Babayev yalnızca əfsanə haqqında deyil, Əshabi Kəhfin yaranmasından, bu adda olan ziyarətlərin dünyanın bir neçə yerində olmasından da bəhs edir.

Səfərəli Babayev kitabına daxil etdiyi bütün əfsanələrə bu cür həssaslıqla yanaşır. "Üstüpir" adlı əfsanə Ordubad rayonunun Çənənəb çayı boyunca uzanan Üstüpü kəndi haqqındadır. İlk olaraq bu kənd haqqında məlumat verdikdən sonra coğrafiyaşünas alim S.Babayev əfsanə haqqında danışır. Məlum olur ki, Üstüpür kəndi yaxınlığında indi də insanların tez-tez ziyarət etdiyi pir yerləşir. Üstüpü sözünün - toponiminin etimologiyasını buradakı Pirlə əlaqələndirərək onu Üstüpir, yəni yuxarı hissəsində Pir yerləşən məntəqə kimi izahını vermişdir.

## Nəticə / *Conclusion*

Fikirlərimizin yekunu olaraq söyləyə bilərik ki, professor Səfərəli Babayev Naxçıvanla bağlı topladığı folklor toponimlərinə xüsusi diqqət yetirmişdir. Əfsanələri müasir həyatın qovşağında təqdim etmişdir. Onun topladığı bu əfsanələrin böyük elmi və tarixi əhəmiyyəti vardır. Eyni zamanda, Səfərəli Babayev folklorumuzun ölməz nümunələrinin təbliğində mühüm rol oynamışdır.

## Ədəbiyyat / *References*


1. Babayev, S. Naxçıvanda "Kitabi-Dədə Qorqud" toponimləri. – Bakı: XXI – Yeni Nəşrlər Evi, 1999. – 224 s.
2. Bağırov, A. "Kitabi-Dədə Qorqud"da işlənən Naxçıvan toponimləri. "Azərbaycan" qəzeti, 4 noyabr 2015-ci il.
3. Həbibbəyli, İ. "Kitabi-Dədə Qorqud" haqqında yeni tədqiqat / Babayev S. Naxçıvanda "Kitabi-Dədə Qorqud" toponimləri. – Bakı: XXI – Yeni Nəşrlər Evi, 1999. – 224 s.
4. Kazımoğlu, M. Eposda tarixilik. "Folklor və tariximiz" mövzusunda elmi konfransın materialları. – Bakı: Elm və təhsil, 2012. – 220 s.


## Фольклорные топонимы Нахчывана в исследованиях Сафарали Бабаева


**Нигяр Исаева**

Доктор философии по филологии

Институт литературы имени Низами Гянджеви НАНА

E-mail: nigar.isaeva65@mail.ru



**Резюме.** Проведённые автором статьи исследования, а также ряд примеров по истории и географии служат доказательством того, что Нахчыванский край, как одно из основных мест проживания героев эпоса «Китаби Деде Горгуд», являлся их родиной. Все топонимы, связанные с событиями в эпосе «Китаби Деде Горгуд» и воспетые в его частях, происходят в Нахчыванском крае, являющемся неотъемлемой частью Азербайджана, Западном Азербайджане и соседних прилегающих территориях – на северо-востоке Турции, юго-востоке Грузии и северной части Южного Азербайджана. В статье к исследованию привлечены труды Сафарали Бабаева, касающиеся изучения топонимов из эпоса «Китаби Деде Горгуд».



**Ключевые слова:** «Китаби Деде Горгуд», Нахчыван, топоним, Аг гайа, Дерешам, Алинджа